**UOT 81**
**https://doi.org/10.59849/2311-8482.2025.2.120**

**GÜLNAR MƏMMƏDOVA***

# QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ SİNTAKTK ÜSULLA SÖZ YARADICILIĞI

*Qərbi Azərbaycan şivələri Azərbaycan dilinin dialektoloji sistemində özünəməxsus leksik-semantik və sintaktik xüsusiyyətləri ilə fərqlənir. Bu şivələrdə söz yaradıcılığının əsas istiqamətlərindən biri sintaktik üsuldur. Sintaktik üsul vasitəsilə yaranan yeni leksik vahidlər, bir tərəfdən, dilin daxili inkişaf qanunauyğunluqlarını əks etdirir, digər tərəfdən isə xalqın məişəti, təsərrüfat həyatı, etno-mədəni dəyərləri və dünyagörüşü ilə sıx bağlı olur. Araşdırmada söz birləşmələrinin leksikləşməsi, sabitləşmiş ifadələrin yeni semantik çalarlar qazanması, ikiləmə və təkrarların kommunikativ-praqmatik rolu, həmçinin bu proseslərin şivələrdə normallaşma meyilləri tədqiq edilmişdir. Qərbi Azərbaycan şivələrinin dialekt faktları əsasında aparılan təhlil göstərir ki, sintaktik üsulla söz yaradıcılığı bu şivələrin zənginliyini və dinamik inkişafını nümayiş etdirir.*

***Açar sözlər:*** *Qərbi Azərbaycan şivələri; sintaktik üsul; söz yaradıcılığı; leksikləşmə; ikiləmə; sabitləşmiş birləşmələr; dia*

## Giriş

Azərbaycan dili çoxəsrlik inkişaf tarixinə malik olan, zəngin dialekt və şivə sistemini hifz edən bir dildir. Dilin dialektoloji mənzərəsi onun yalnız fonetik və morfoloji müxtəlifliyini deyil, həm də xalqın həyat tərzini, dünyagörüşünü, etnik-mədəni kimliyini əks etdirir. Bu mənada Azərbaycan dilinin dialekt və şivələrinin tədqiqi yalnız linqvistik baxımdan deyil, həm də etnoloji və mədəni baxımdan mühüm əhəmiyyət kəsb edir. Dialektlərin araşdırılması, xüsusilə söz yaradıcılığının müxtəlif üsullarının öyrənilməsi, ədəbi dilin inkişaf mexanizmlərini, dilin daxili qanunauyğunluqlarını üzə çıxarmağa imkan verir.

Azərbaycan dilinin dialekt sistemində Qərbi Azərbaycan şivələri xüsusi yer tutur. Bu şivələr tarixən geniş ərazilərdə formalaşaraq xalqın məişətini, təsərrüfat həyatını, etnoqrafik xüsusiyyətlərini dil faktlarında qoruyub saxlamışdır. Qərbi Azərbaycan şivələrinin leksik qatında xalqın sosial-mədəni həyatını əks etdirən çoxsaylı leksik vahidlər, sintaktik quruluşunda isə arxaik ünsürlərlə yanaşı, yeni dil hadisələri müşahidə olunur. Bu baxımdan Qərbi Azərbaycan şivələrinin öyrənilməsi Azərbaycan dialektologiyasının mühüm istiqamətlərindən biridir.

Söz yaradıcılığı dilçilikdə müxtəlif üsullarla həyata keçirilir. Ənənəvi olaraq morfoloji, leksik-semantik və sintaktik üsullar fərqləndirilir. Morfoloji üsul daha çox şəkilçi vasitəsilə yeni sözlərin yaranması ilə xarakterizə olunur. Leksik-semantik üsulda mövcud sözlərin yeni mənalar qazanması müşahidə edilir. Sintaktik üsul isə dilin həm ədəbi, həm də dialekt müstəvisində çox məhsuldar olan, söz ehtiyatının zənginləşməsinə əhəmiyyətli töhfə verən üsullardan biridir.

Sintaktik üsulla söz yaradıcılığı dedikdə əsasən aşağıdakı halları nəzərdə tutmaq olar: söz birləşmələrinin leksikləşməsi; sabit birləşmələrin yeni semantik çalarlar kəsb etməsi; ikiləmə və təkrar formalarının leksik vahid kimi işlənməsi; məişət və təsərrüfat həyatı ilə bağlı yeni frazeoloji vahidlərin yaranması.

Türk dillərində mürəkkəb sözlərin öyrənilmə tarixi o qədər də qədimlərə dayanmır. Qərbi Azərbaycan şivələrində mürəkkəb sözləri araşdırmaqdan ötrü türk dillərində mürəkkəb sözlərin öyrənilmə tarixinə qısa şəkildə nəzər salaq. Mürəkkəb sözlərin xüsusiyyətlərinin öyrənilməsi tarixi yalnız XIX əsrdən başlanır. Buna görə də ayrı-ayrı dillərin normativ qrammatikalarına dair əsərlərdə digər dil kateqoriyaları və hadisələri ilə yanaşı, mürəkkəb sözlərin də qısa elmi xarakteristikası verilir.

Xüsusilə, İ. Qiqanov, M. Kazım bəy, M. Terentyev, V.V. Radlov, İ.M. Melioranski, N.İ. Aşmarin kimi alimlərin əsərlərində mürəkkəb sözlər haqqında ilk anlayışlara, yəni onların yaranması və quruluşu barədə ümumi elmi məlumatlara rast gəlinir. Qeyd etmək lazımdır ki, bu cür elmi baxışlar sonrakı dövrlərdə mürəkkəb sözlərlə bağlı tədqiqatların inkişafına zəmin, daha doğrusu, əsas olmuşdur.

İ. Qiqanov mürəkkəb sözlərə ilk tərif verənlərdən biri olmuşdur: "Mürəkkəb sözlər iki və ya bir neçə sözdən düzələn vahidlərdir". Həmin əsərdə mürəkkəb sözlərin tərkibi, yaranma yolları məsələləri qaldırılmış, fakt və materiallarla təsvir olunmuş, həmçinin mürəkkəb isimlər, mürəkkəb sifətlər və mürəkkəb fellər şəklində təsnifat verilmişdir. Bu əlaqədə İ. Qiqanov vurğulayır ki, əsas komponentin xüsusiyyətlərinə görə mürəkkəb sözlər bir neçə növə ayrılır və onların yaranması əsasən analitik üsula əsaslanır [6, s. 45].

M.A. Kazım bəyin əsərlərində bu fikir davam etdirilmiş, nəzəri məsələlər dəqiqləşdirilmiş, türk dillərinin zənginliyi onların söz yaradıcılığı və söz birləşdirmə imkanları ilə izah olunmuşdur. O, bir neçə sözün birləşməsi ilə, əsasən, mürəkkəb fellərin yaranmasını göstərmiş və "birləşik söz" anlayışını ilk dəfə elmə gətirmişdir [9].

M. Terentyev *"Türk, fars, qırğız və özbək dillərinin qrammatikası"* əsərində *bazar başı, ağsaqqal* kimi nümunələr vermiş, onları söz yaradıcılığı modeli və söz birləşməsinin nəticəsi kimi təqdim etmişdir. Bu fikri P.M. Melioranski də bölüşmüşdür [12].

V.V. Radlov təkcə bir söz daxilində deyil, həm də mürəkkəb sözlərin yaranmasında ahəng qanununun rolunu xüsusi qeyd etmişdir. Onun fikrincə, bu qanun sayəsində sözlər semantik cəhətdən vahid bütövə çevrilir [10].

Ümumiyyətlə, XIX əsrdən XX əsrin əvvəllərinə qədər qədər yazılmış qrammatika əsərlərinin əksəriyyəti praktiki məqsədlərə xidmət etmiş, əsasən, qeyri-türkdilli xalqlara rus dilini öyrətməyə yönəlmişdi. Buna görə də türk dillərinin qanunauyğunluqları çox vaxt rus dilinin xüsusiyyətləri ilə eyniləşdirilməyə çalışılırdı. Lakin bütün bunlara baxmayaraq, həmin əsərlərdə mürəkkəb sözlərin mövcudluğu, sadə sözlərdən prinsipial fərqləri ilk dəfə vurğulanmışdır.

Sovet dövründə türkologiya ümumi dilçiliyin metodoloji bazası üzərində inkişaf etmişdir. İlk illərdə A.N. Samoyloviç və V.A. Qordlevski mürəkkəb sözləri "iki isim bazasının birləşməsi" kimi izah etmişlər. Onların əsərləri elmi araşdırma deyil, daha çox dərs vəsaiti xarakteri daşımışdır .

Türkologiyada mürəkkəb sözlərin kompleks şəkildə öyrənilməsi məsələsini ilk qaldıranlardan biri N.K. Dmitriyev olmuşdur. O, kumık və başqırd dillərinin qrammatikalarında "mürəkkəb söz" terminindən istifadə etməsə də, "qoşa söz birləşməsi" anlayışını irəli sürmüş və bunu söz yaradıcılığı prosesi kimi izah etmişdir [8, s.178].

N.A. Baskakov mürəkkəb sözü "bir və ya bir neçə sözün leksik bütövlük əmələ gətirməsi" kimi xarakterizə etmişdir. Onun fikrincə, sintaktik prinsip əsasında yaranan bu vahidlər söz birləşməsindən fərqli olaraq yalnız bir anlayışı ifadə edir [5, 99].

B.O. Oruzbayevanın sözlərinə görə, həm tarixi, həm də müasir mürəkkəb sözlərin əsasında eyni sintaktik münasibətlər dayanır [13, s.119]. Mürəkkəb sözlər ayrı-ayrı dillərin qrammatikalarında digər kateqoriyalarla yanaşı öyrənilmişdir. Bəzi əsərlərdə yalnız onların mövcudluğu qeyd olunmuş, bəzilərində isə söz birləşmələri və sabit birləşmələrdən fərqli prinsipləri araşdırılmışdır.

Ədəbiyyatda sintaktik üsulla söz yaradıcılığı məsələsinə müxtəlif aspektlərdən yanaşılmışdır. Azərbaycan dilçiliyində bu sahədə ilk elmi yanaşmalar XX əsrin ortalarından başlayaraq Ə. Dəmirçizadə, A. Axundov, A. Əfəndiyev, sonrakı dövrlərdə isə Ə. Əliyev, M. Adilov, Ə. Vəliyev və başqalarının tədqiqatlarında öz əksini tapmışdır. Türkologiyada isə bu problemə K. Musaev (1984), N. Baskakov, M. Rəsanen, həmçinin müasir tədqiqatçılar tərəfindən diqqət yetirilmişdir. Bu işlərin

ümumi nəticəsi ondan ibarətdir ki, sintaktik üsulla söz yaradıcılığı yalnız ədəbi dildə deyil, dialektlərdə də söz ehtiyatının genişlənməsində aparıcı mexanizmlərdən biridir.

M.Hüseynova yazır: "Azərbaycan dilçiliyi dialekt və şivələrimizin öyrənil məsi istiqamətində çox böyük uğurlar qazanmışdır. Ayrı-ayrı dialektlərə, şivələrə və dialekt qruplarına aid bir sıra qiymətli monoqrafiyalar yazılmış, dissertasiyalar müdafiə olunmuş, Azərbaycan dilinin dialektoloji atlası hazırlanmış, dialektlər dən külli miqdarda söz toplanaraq lüğətlər tərtib edilmişdir" [3, s.20]. Biz də Qərbi Azərbaycan şivələrindəki mürəkkəb sözləri araşdırarkən dialektoloji lüğət faktlarında istifadə etdik.

Qərbi Azərbaycan şivələrinin sintaktik xüsusiyyətlərinin öyrənilməsi bir tərəfdən dialekt materiallarının zənginliyini üzə çıxarır, digər tərəfdən isə Azərbaycan dilinin inkişaf qanunauyğunluqlarını daha dərindən anlamağa şərait yaradır. Bu tədqiqat həm də tarixi-linqvistik baxımdan əhəmiyyətlidir, çünki xalq danışıq dilində formalaşmış bir çox leksik vahidlərin mənşəyi, semantikası və funksional rolu yalnız dialekt faktları əsasında aydınlaşdırıla bilər.

Türk dillərinin qrammatik sistemində mürəkkəb sözlər qədimdən mövcud olsa da, onların dil təbiəti hələ tam öyrənilməmişdir. Bir sıra nəzəri məsələlər bu gün də türkologiyada elmi müzakirələrin predmetidir. Q. Mahmudova yazır: "Sözlərin birləşərək söz qrupları meydana gətirib yeni söz icad etməsi də sözyaratma yollarından biridir. Bu üsulla dildə var olan sözlərdən yeni bir anlayış əmələ gəlir. Bu tip sözlərdə varlığı və ya anlayışı tək söz ilə deyil, birdən çox söz ilə ifadə etmək olur" [4, s.89].

Azərbaycan dilindəki mürəkkəb sözlərin müxtəlif təsnifatları mövcuddur. Muxtar Hüseynzadə, Səlim Cəfərov, Yusif Seyidov, Buludxan Xəlilov dilimizdəki sintaktik üsulla yaramnış leksik vahidləri təsnif etmişlər. Alimlərin mürəkkəb sözləri yazılış yaydalarına görə, yaranma üsullarına və mövzu baxımından təsnifatı bir-birindən əsaslı şəkildə fərqlənmir. İ. Bayramov Azərbaycan dilinin dialektlərindəki sintaktik üsulla yaranmış leksik vahidlərdən bəhs edərkən. Ədəbi dildəki bölgünü əsas götürmüş və 17 növ təsnifat təqdim etmişdir [1, s.431]. Qərbi Azərbaycan şivələrində işlənən mürəkkəb sözlər üzərində araşdırma apararkən biz bu leksik vahidləri üç prinsip üzrə təsnif etməyi qərara aldıq:

1. *Yazılışına görə:*

a. *Bitişik yazılanlar:* ***Amanabənd*** (Çəmbərək, İrəvan) - 1. müvəqqəti; 2. əl dəyməmiş düşüb sınan; 3. hər hansı əşyaya toxunan kimi düşən; 4. davamsız, möhkəm olmayan- Qapını amanabənd düzəldif getdi (Çəmbərək) [2, s. 24].

b. *Defislə yazılanlar*: ***Aşdan-başdan*** (Meğri) - Novruz bayramı günü evdən kənarda bişirilən plov [2, s. 28].

c. *Ayrı yazılanlar**:*** ***Basaratı bağlammax*** I (Qarakilsə) - 1. özünü itirmək; 2. nitqi tutulmaq, dili-ağzı bağlanmaq; 3. iş görə bilməmək, düşünmək imkanı olmamaq - Anamın basaratı bağlansa, heş nə də:mməz. Basaratı bağlammax II (Vedi, Zəngibasar) - key kimi olmaq, özünü itirmək- Elə bir birdən birə basaratım bağlandı (Vedi). [2, s.37].

2. *Mövzusuna görə:*

   a. **Gündəlik məişət və təsərrüfatla bağlı ifadələr:** *Qaraqayş* (Çəmbərək) - kotana, cütə qoşulan heyvanların birinci cütü; *Qaraqayış* I (Dərələyəz) - kotana cütə qoşulan üç cüt öküzün arxadan ikinci cütü [2, s. 169]; *Davanhaqqı* (Çəmbərək) - çobana verilən əmək haqqı [2, s. 169];

   b. **Mənəvi-emosional vəziyyəti, xasiyyəti bildirən mürəkkəb sözlər:** *Qulağagirən* II (Vedi, Zəngibasar) - hiyləgər, qılıqlı (adam) [2, s.183]; *Darqursax* (Basarkeçər, Çəmbərək, Vedi, Zəngibasar) - hövsələsiz, kəmhövsələ [2, s.83];

c. **Adət-ənənə, etnoqrafiya ilə bağlı olanlar:** *Baja-baja* (Çəmbərək) - Novruz bayramında kirvələrin bir- birinə pay aparması-Bax, baja-bajadan xoşum gəlmir [2 , s.35 ]; *Qarayellə* (Əştərək) - çilikağac oynunda çiliyə vurmanın bir növü [2, s.170]; *Qapıpusma* (Çəmbərək) - Novruz bayramında, ilin axır çərşənbəsində bağlı qapı arxasında evdəki danışıqların gizlicə dinlənilməsi, qulaq falı [2, s.173]; *Nazbalış* (İrəvan, Vedi, Zəngibasar) - iri yastıq (qu tükündən düzəldilir) [2, s.214]; *Carcar* (Əştərək) - taxılı döymək üçün altına bıçaqlar vurulmuş hərlənən kötük-54

d. **Bitki və heyvan adları:** *Bajaquşu* (Hamamlı) – qaranquş; *Balboranı* (Hamamlı) – balqabaq [2, s.36]; *Qoyunburnu* (Basarkeçər) – itburnu; *Qoyungözü* (İrəvan, Üçkilsə, Vedi, Zəngibasar)- üzüm növü [2, s. 188]; *Pazıbaşı* (Çəmbərək, İrəvan, Zəngibasar) -çuğundur yarpağı; *Pazıpencəri* (Ağbaba) - yabanı bitki adı [2, s.227]; *Alaqaşqa* (Vedi, Zəngibasar) - alnında ağ ləkə olan heyvan - Alaqaşqa erkəyi qapıya bağlamışdılar (Zəngibasar).

e. **Təbiət hadisələri ilə əlaqəli mürəkkəb sözlər:** *Çobandüyüsü* (Dərələyəz) - yazda yağan yağış [2, s. 75]; *Nəmişaran* II (Çəmbərək) – yağış [2, s.227 ].

f. **Hərəkət anlamı verən mürəkkəb sözlər:** *Andıra qalmax* (Çəmbərək) - 1. sahibsiz qalmaq, yiyəsiz qalmaq; 2. məc. hədər getmək [2, s.25]; *Dambat-dambat damşmax* (Vedi, Zəngibasar) – lovğalanmaq [2, s.80]; *Qaraçöp qalmax* (Basarkeçər) - dincə qalmaq ; Qaradam I (İrəvan, Vedi, Zəngibasar) – daxma;

g. **Əşyanın, hadisənin, hərəkətin əlamətini bildirən mürəkkəb sözlər:** *Alapörttəx'* (Çəmbərək) - az bişmiş, alaçiy - Məşəd Abbas əlindəki əti arvadına verib üstəlik dedi ki, cavat qoyunun ətidir. Ojaxda alapörtəx' eliyin, gətirin yə:x'. [2, s. 25].

h. **Qohumluq bildirən sözlər**: *Dayıcanı* (Vedi) - dayı arvadı; Daydostu (Vedi) -bax: dayıcanı [2, s84].

*2.Yaranma üsuluna görə:*

a. **İki müxtəlif sözün birləşməsindən yarananlar:** *Aranbasar* (Meğri) - yaylaqla aran yerləri arasındakı ərazi-İndi aranbasarda heyvan saxlamazdar bu issiynən [2, s.26].

b. **Eyni sözün təkrarından yarananlar**: *Pittə-pittə* (Çəmbərək, Kalinino) - bircə-bircə, dəqiqliklə [2, s.232].

c. **"ba" hissəciyi ilə yarananlar:** *Boybaboy* (Çəmbərək) - bərabər Boygörmə (Basarkeçər, Çəmbərək) - 1. toydan sonra təzə gəlini görmək mərasimi; 2. təzə gəlinə toydan sonra verilən hədiyyə [2, s.47].

d. **Birinci tərəfi qeyri-müəyyən yiyəlik halda olanlar:** *Çobançörəyi* (İrəvan) - zəhmət haqqı olaraq çobanlara verilən çörək [2, s.70]; Danagözü (İrəvan) - üzüm növü-Danagözü üzümü çox daddı olur[2, s.81];

e. **İkinci komponenti feili sifət olan:** *Danaqıran* (Çəmbərək, Basarkeçər) - yabanı bitki adı, novruzgülü (mart ayında çıxır) [2, s. 81].

f. **Birinci tərəfi sifətdən ibarət olanlar:** *Darmajal* (Basrkeçər,Çəmbərək) - tələsik-Bu darmajalda yenə yaxamdan əl çəkmirsən (Basrkeçər). [2, s.89]. *Qaraçöp* (Basarkeçər, Çəmbərək) -dincə qoyulmuş əkin yeri ; *Qaradam* II (Çəmbərək) - yerdən qazılan dam; *Qaradavan (*Çəmbərək) - uğursuz (adam haqqında) ; *Qaradiş* (Ağbaba, Basarkeçər, Çəmbərək, Qarakilsə) - üçillik erkək davar [2, s.169].

g. **Hər iki tərəfi hərəkət bildirən sözdən ibarət olanlar:** *Qızdırbasdı* (Çəmbərək) - tələm-tələsik [2, s.185]; *Döydümölməz* I (İrəvan) - atasız uşaq ; *Döydümölməz* II (Çəmbərək, İrəvan) - möhkəm, dözümlü (geyim haqqında) [2, s.97];

h. **Hər iki tərəfi mənası olmayan leksik vahidlərdən yarananlar:** *Əlləm-qallam* (Kalinino) - sözünə düz olmayan, yalançı, fırıldaqçı [2, s.109]; *Pürtüm-pürtüm* (Qafan) - didik-didik; *Dəngil-düngül* (Qarakilsə) - 1. seyrək; 2. az bişmiş taxıl; 3. az gətirmiş meyvə-Ağaşdarda meyvə biyil dəngil-düngüldü, görmürsən? [2, s.85];

Qərbi Azərbaycan şivələrində bu tip söz yaradıcılığı xüsusilə məhsuldur. Dilin sintaktik imkanlarının geniş şəkildə səfərbər olunduğu müşahidə edilir. Dialekt materialları göstərir ki, bu cür leksik vahidlər yalnız dilin üslubi rəngarəngliyini təmin etmir, həm də xalq dünyagörüşünü, milli-mədəni dəyərləri ifadə edir.

Aparılan tədqiqat göstərir ki, Qərbi Azərbaycan şivələri Azərbaycan dilinin dialektoloji sistemində zəngin leksik və sintaktik potensiala malikdir. Bu şivələrdə sintaktik üsulla söz yaradıcılığı məhsuldar proses olub, yeni leksik vahidlərin yaranmasında mühüm rol oynayır. Söz birləşmələrinin leksikləşməsi, sabitləşmiş ifadələrin yeni semantik çalarlar qazanması, ikiləmə və təkrarların leksik vahid kimi işlənməsi bu şivələrin dil faktlarında geniş müşahidə olunur.

Sintaktik üsulla formalaşan söz və ifadələr, bir tərəfdən, xalqın məişəti, təsərrüfat həyatı və sosial-mədəni dəyərləri ilə bağlıdır, digər tərəfdən isə Azərbaycan dilinin ümumi inkişaf meyillərini əks etdirir. Qərbi Azərbaycan şivələrinin materialları göstərir ki, bu tip söz yaradıcılığı yalnız üslubi zənginliyi təmin etmir, həm də milli-mədəni irsin qorunması baxımından mühüm funksiyaya malikdir.

Qərbi Azərbaycan şivələrində sintaktik üsulla söz yaradıcılığı dilin daxili imkanlarının reallaşmasının, xalq danışıq dilinin leksik yaradıcılıq gücünün və milli-mədəni kimliyin ifadə vasitələrinin bariz göstəricisi kimi qiymətləndirilməlidir.

**Nəticə**

Beləliklə, Qərbi Azərbaycan şivələrində sintaktik üsulla söz yaradıcılığının araşdırılması dialektoloji materialların sistemləşdirilməsi, milli-mədəni dəyərlərin dil faktlarında öyrənilməsi və Azərbaycan dilinin ümumi inkişaf meyillərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT

1. Bayramov, İ. Azərbaycan dialektologiyası, Ankara: 2022, 456 səh.
2. Bədəlov, A. Qərbi Azərbaycan şivələri lüğəti/– Ankara: 2023, 314 səh.
3. Hüseynova, M Ümumtürk dilləri dialekt və şivələrinin qarşiliqli inteqrasiyasi // ADPU-nəşriyyatı. Bakı-2020 s. 600 s.
4. Mahmudova, Q. Müasir türk dillərində sözyaratma üsulları΄–Bakı: Zəngəzurda, 2021,
5. Баскаков, Н. А. Каракалпакский язык. Фонетика и морфология. М., 1952.
6. Гиганов, И. Грамматика татарского языка. СПб, 1801 году.
7. Гордлевский, В. А. Грамматика турецкого языка. М., 1928.
8. Дмитриев, Н. К. Грамматика башкирского языка. М.-Л., 1948.
9. Казембек, М. А. Общая грамматика турецко-татарского языка. Казань, 1864.
10. Радлов, В. В. «Опыт словаря тюркских наречий». Т.I –IV. СПб., 1888-1911.
11. Самойлович, Н. А. Краткая учебная грамматика современного османо-турецкого языка. Л., 1925.
12. Терентьева, М. Грамматика турецкая, персидская, киргизская и узбекская. СПб., 1878.
13. Орузбаева Б. О. Словообразование в киргизском языке. Бишкек, 1981.

***AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı**
***ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının müəllimi***
***ORCİD İD:0000-0001-5388-5373***
***muxtarzadequlnar@gmail.com***

**Gulnar Mammadova**

## WORD CREATION BY SYNTACTIC METHOD IN WESTERN AZERBAIJAN DIALECTS

The dialects of Western Azerbaijan occupy a distinctive place within the dialectological system of the Azerbaijani language, characterized by unique lexical-semantic and syntactic features. One of the essential mechanisms of word formation in these dialects is the syntactic method. New lexical units formed through syntactic means not only reflect the internal developmental patterns of the language but are also closely related to the everyday life, economic activities, ethno-cultural values, and worldview of the people. The study examines the lexicalization of word combinations, the acquisition of new semantic shades by fixed expressions, the communicative-pragmatic role of reduplication and repetition, as well as the tendencies of normalization of these processes in the dialects. Based on the factual material of Western Azerbaijani dialects, the analysis demonstrates that syntactic word formation represents an important linguistic phenomenon that illustrates both the richness and dynamic development of these dialects.

**Keywords:** *Western Azerbaijani dialects; syntactic method; word formation; lexicalization; reduplication; fixed expressions; dialectology.*

**Гюльнар Мамедова**

## СЛОВОСОЗНАНИЕ СИНТАКТИЧЕСКИМ МЕТОДОМ В ЗАПАДНОАЗЕРБАЙДЖАНСКИХ ДИАЛЕКТАХ

Говоры Западного Азербайджана занимают особое место в диалектологической системе азербайджанского языка, отличаясь своеобразными лексико-семантическими и синтаксическими особенностями. Одним из важнейших направлений словообразования в этих говорах является синтаксический способ. Новые лексические единицы, образованные посредством синтаксиса, с одной стороны, отражают внутренние закономерности развития языка, а с другой — тесно связаны с бытом, хозяйственной деятельностью, этнокультурными ценностями и мировоззрением народа. В исследовании рассматриваются процессы лексикализации словосочетаний, приобретение устойчивыми выражениями новых семантических оттенков, коммуникативно-прагматическая роль удвоений и повторов, а также

тенденции нормализации этих процессов в говорах. Анализ на материале говоров Западного Азербайджана показывает, что синтаксический способ словообразования является важным языковым явлением, отражающим богатство и динамическое развитие данных говоров.

**Ключевые слова:** *Говоры Западного Азербайджана; синтаксический способ; словообразование; лексикализация; удвоение; устойчивые выражения; диалектология.*

*Filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 03.04.2025**
**Son daxilolma tarixi:11.05.2025**